# Qətiyyətli Liderin güclü iradəsi ilə qazanılan parlaq Zəfər

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ilk dəfə prezident seçilməsindən 21 il ötür. Həqiqətən də bu 21 il ərzində ölkəmiz çox böyük inkişaf yolu keçmişdir. Xüsusilə, 90-cı illərin əvvəllərində çox ağır və çətin dövrdə olan Azərbaycanı ulu öndər Heydər Əliyev hakimiyyətə gəlişi xilas etdi. Ölkəmizin müstəqilliyini qoruyan və müasir Azərbaycanın banisi olan ulu öndər Heydər Əliyev tarix yazdı. Məhz onun siyasi varisi cənab İlham Əliyevin yaratdığı reallıqlar onu deməyə əsas verir ki, cənab Prezident ata vəsiyyətini tam şəkildə reallaşdırdı, Azərbaycan iqtisadiyyatını gücləndirdi, ordunu yenidən qurdu. Azərbaycan demək olar ki, qısa bir müddətdə regionun ən aparıcı qüvvəsinə çevrildi.**

Ulu Öndərin ruhu bu gün şaddır, çünki Azərbaycan onun ən layiqli siyasi davamçısı İlham Əliyevin rəhbərliyi ilə öz tarixinin ən güclü dövrünü yaşayır. Cənab İlham Əliyev Azərbaycanı gücləndirərək elə bir səviyyəyə çatdırdı ki, ordumuz Ermənistanın işğal siyasətinə son qoydu, torpaqlarımızı azad etdi. Bununla həm də Ulu Öndərin arzuları həyata keçirildi, vəsiyyəti yerinə yetirildi: "Mən bu gün, eyni zamanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün!", - deyə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şəhidlər xiyabanından xalqa müraciəti zamanı bildirmişdi.

Məhz 2003-cü ildə cənab İlham Əliyevin ilk dəfə prezident seçildiyi zaman verdiyi bütün sözlər bu gün artıqlaması ilə yerinə yetirilib. Ən əsası biz ərazi bütövlüyümüzü və suverenliyimizi məhz cənab Prezident İlham Əliyevin rəhbərliyi dönəmində bərpa etmişik. Azərbaycan diplomatiyasının səyləri nəticəsində münaqişənin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurası, Qoşulmama Hərəkatı, Avropa İttifaqı, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası kimi beynəlxalq təşkilatların sənədləri buna müvafiq hüquqi baza yaratdı. Azərbaycanın haqlı mövqeyi əhəmiyyətli dərəcədə gücləndi, uzun illər Ermənistanın yürütdüyü faşist ideologiyası, xalqımıza qarşı etnik təmizləmə, soyqırımı, dövlət terrorizmi və işğalçılıq siyasətinin, eləcə də erməni yalanlarının dünya miqyasında ifşası istiqamətində əhəmiyyətli rol oynadı, tarixi ədalətin zəfər çalmasına nail oldu. Ölkəmiz beynəlxalq təşkilatlarda ən yüksək səviyyədə təmsil olunur və beynəlxalq hüquq və konvensiyalara həmişə sadiq qalıb. Azərbaycan öz daxili sabitliyi və tərəqqisini gücləndirməklə yanaşı, qonşu dövlətlərə, eyni zamanda yardıma, ehtiyacı olan ölkələrə də həmişə kömək əlini uzadıb. Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən müstəqil xarici siyasət beynəlxalq arenada böyük rəğbətlə qarşılanır. Bu, Azərbaycanın dünya güc mərkəzləri ilə yaratdığı güclü əlaqələrin və milli maraqlara əsaslanan qətiyyətli siyasətin bariz sübutudur. Bu gün Azərbaycan Cənubi Qafqazda yeganə ölkədir ki, həm regional təhlükəsizliyi təmin etmək, həm də öz milli maraqlarını qorumaq məqsədilə ardıcıl və əsaslı addımlar atır. Azərbaycanın xarici siyasəti təkcə region daxilində deyil, eyni zamanda qlobal səviyyədə də sabitliyə və əməkdaşlığa yönəlib. Ölkəmizin təşəbbüsü ilə yaradılan beynəlxalq əməkdaşlıq formatları Cənubi Qafqazda sabitliyin qorunmasında vacib rol oynayır. Bununla yanaşı, Azərbaycan dünya miqyasında qarşıya çıxan problemlərə səmərəli həll yolları təklif edir və beynəlxalq platformalarda sülhün və təhlükəsizliyin möhkəmlənməsinə aktiv töhfələr verir. Azərbaycanın qətiyyətli mövqeyi və səmərəli təklifləri onu bölgənin və dünyanın əvəzedilməz ölkəsinə çevirir.



Bu gün Azərbaycanın əldə etdiyi iqtisadi uğurlar ölkəmizin gələcəyini daha da parlaq edir və qazandığı iqtisadi müstəqillik sayəsində siyasi gücünü daha da artırıb. 30 il ərzində Ermənistanın hərbi təcavüzü ilə yaranmış Qarabağ münaqişəsini həll edərək, dünya üçün vacib olan "Cənub Qaz Dəhlizi" layihəsini uğurla həyata keçirdik. Bu layihə təkcə Azərbaycanın deyil, bütün regionun enerji təhlükəsizliyinə böyük töhfə verib. Bakı-Tbilisi-Qars nəqliyyat dəhlizinin fəaliyyət göstərməsi ölkəmizin beynəlxalq arenadakı mövqeyini möhkəmləndirib. Orta dəhlizin əsas seqmenti kimi Azərbaycan qlobal oyunçulara əlavə biznes imkanları yaradır. Ölkəmizin reallaşmasına mühüm töhfə verdiyi və son zamanlar dünyada böyük dəstək qazanan bu dəhliz Asiya ilə Avropanı birləşdirən vacib nəqliyyat şəbəkəsinə çevrilir. Azərbaycan Şimal-Cənub, Şərq-Qərb dəhlizlərinin iştirakçısı kimi son illər sürətlə nəqliyyat logistika infrastrukturunu həm yeniləyir, həm də genişləndirir. Davamlı və dinamik inkişaf məntiqinə əsaslanan bu siyasətin həyata keçirilməsi nəticəsində qazanılmış uğurlar daha da möhkəmləndirilmiş, bu dövrdə makroiqtisadi sabitlik qorunub saxlanılmış, iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sahələrinin, regionların inkişafı sürətlənmiş, strateji valyuta ehtiyatlarının səmərəli istifadəsi təmin olunmuş, milli valyutanın sabitliyi, bank sisteminin etibarlılığı artırılmış, konservativ xarici borclanma strategiyası həyata keçirilmiş, sahibkarlığa dövlət dəstəyi gücləndirilmiş, əhalinin sosial rifahı davamlı olaraq yaxşılaşmışdır.

Qarabağ və Şərqi Zəngəzurun sürətli şəkildə bərpa edilməsi, quruculuq, abadlığın həyata keçirilməsi, keçmiş məcburi köçkünlərin öz dədə-baba yurdlarına qaytarılması məhz cənab Prezidentin liderliyi sayəsində mümkün oldu. Qeyd edək ki, Qələbəmizdən sonrakı üç il müddətində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonundakı bərpa-quruculuğa dövlət büdcəsindən 12 milyard manat vəsait ayrılmışdı. 2024-cü ilin dövlət büdcəsində isə görüləcək işlər üçün 4 milyard manat vəsait nəzərdə tutulub. Ümumilikdə isə Böyük Qayıdışa dair Birinci Dövlət Proqramının icrası üçün sonrakı illərdə 14,5 milyard manat vəsait nəzərə alınmaqla 2022-2026-cı illərdə ümumilikdə təqribən 30,5 milyard manat məbləğində vəsait tələb olunur.

Demək olar ki, bizim sadaladığımız bu layihələri uğurla həyata keçirə biləcək ikinci bir nümunə göstərə bilmirik. Azərbaycan öz gücü hesabına bu işləri həyata keçirir və bu günlərdə xalqın sosial rifahının gücləndirilməsi, vətəndaşların həyat tərzinin daha da yaxşılaşdırılması üçün Azərbaycan dövləti, hökuməti təxirəsalınmaz işlər görür və qarşısına qoyduğu bütün hədəfləri mərhələli şəkildə həyata keçirir. Bu baxımdan da biz cənab Prezident İlham Əliyevi ürəkdən təbrik edirik və biz inanırıq ki, məhz onun liderliyi ilə Azərbaycan daha da inkişaf edəcək və vətəndaşlarımızın sosial-iqtisadi vəziyyəti daha da yaxşılaşacaqdır. Məhz bununla biz böyük zəfərlərə, daha böyük uğurlarla birlikdə imza atacağıq.

**Naqif HƏMZƏYEV,**
**Milli Məclisin deputatı.**

Respublika .- 2024.- 16 oktyabr (№ 227).- S.4.